# ƏMR

29 aprel 2022-ci il

MİHO/1.3-3.1-2022-106

Bakı şəhəri

**"Xarici ölkələrdə hazırlıq alan tibb və əczaçılıq işçilərinin bilik səviyyəsinin və peşə səriştəsinin yoxlanılması və müvafiq maarifləndirmə işlərinin aparılması barədə"**

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli 413 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə"nin 14.5-ci bəndini və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 12 yanvar tarixli 5 nömrəli qərarı ilə təsdiq edilmiş "Xarici ölkələrdə hazırlıq alan tibb və əczaçılıq işçilərinin Azərbaycan Respublikasında tibbi və əczaçılıq fəaliyyəti ilə məşğul olmağa buraxılması Qaydası"nı rəhbər tutaraq, ölkədə 2011-ci ildən rezidentura təhsili tətbiq edildikdən sonra xarici ölkələrdə internatura və klinik ordinatura təhsili almış şəxslərin (bundan sonra – müvafiq şəxslər) ixtisasları üzrə Azərbaycan Respublikası ərazisində tibb və əczaçılıq fəaliyyəti ilə məşğul olmağa buraxılması ilə əlaqədar Səhiyyə Nazirliyinə (bundan sonra – Nazirlik) çoxsaylı müraciətlərini nəzərə alaraq, müvəqqəti tənzimləmə tədbirlərinin görülməsi məqsədi ilə

**əmr edirəm:**

1. Müvafiq şəxslərin bilik səviyyəsinin və peşə səriştəsinin yoxlanılması üçün imtahan keçirilsin.

2. İnsan resursları şöbəsinin müdiri S.Rüstəmovaya və Daxili nəzarət şöbəsinin müdiri E.Qədirova tapşırılsın ki, bu əmr imzalandığı gündən 1 ay müddətində imtahanın keçirilməsi qaydası barədə Nazirliyin kollegiya qərarının layihəsi hazırlansın.

3. İctimai Səhiyyə və İslahatlar Mərkəzinin direktoru Q.Haqverdiyevə tapşırılsın:

3.1 imtahanın keçirilməsi üçün lazım olan imtahan proqramı və suallar toplusu 3 ay müddətində hazırlanaraq Kadr məsələləri üzrə Komissiyaya təqdim edilsin;

3.2. imtahanın keçirilməsi üçün zəruri tədbirlər görülsün.

4. İctimaiyyətlə əlaqələr sektorunun müdiri P.Abubəkirova tapşırılsın ki, imtahana dair məlumatın Nazirliyin rəsmi internet saytında yerləşdirilməsi təmin edilsin.

5. Səhiyyənin İnformasiyalaşdırılması Mərkəzinin baş direktoru C.Əsəd-zadəyə tapşırılsın ki, bu əmrdən irəli gələn texniki məsələlərin həlli təmin edilsin.

6. Azərbaycan Tibb Universitetinin rektoru G.Gəraybəyliyə tapşırılsın ki, xarici dövlətlərin ali tibb təhsilinə aid kvalifikasiyaları ilə Azərbaycan Respublikasındakı uyğun kvalifikasiyalar arasındakı əhəmiyyətli fərqin ölkə ərazisində tibb təhsilini növbəti səviyyədə davam etdirmək və (və ya) müvafiq peşə fəaliyyəti ilə məşğul olmaq hüququnun yaranmasına təsiri barədə tələbələrin maarifləndirilməsi təmin edilsin.

7. Əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Nazir** **Teymur Musayev**

Əsli ilə düzdür